BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# ATƏŞKƏSDƏN SONRAKI DÖVRDƏ BMT İLƏ ƏMƏKDAŞLIQ

**R.B.DADAŞOVA**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq Institutu***
***dadashova ramila@rambler.ru.***

*Məqalədə müəllif Ermənistan-Azərbaycan münaqişəsinin BMT çərçivəsində həll edilməsinə üstünlük verir. Müəllif göstərir ki, ümummilli lider H.Ə.Əliyevin hakimiyyətə qayıdışından sonra BMT ilə əməkdaşlıq yeni mərhələdə inkişaf etdi, hazırki prezident İ.H.Əliyev münaqişənin dinc yolla nizama salınmasının tərəfdarı olub, bu barədə dəfələrlə dünya birliyinə müraciət etmişdir. Məqalədə münaqişənin BMT çərçivəsində həll edilməsində qarşıya çıxan problemlər təhlil olunmuş nəticələr əldə edilmişdir.*

Ümummilli lider H.Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində BMT ilə əməkdaşlıq inkişaf etdi. Prezident H.Əliyev 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasında çıxış edərək Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik hüququnu müdafiə etmək bəhanəsi ilə Ermənistanın ölkəmizin ərazilərini ilhaq etməsi, dövlət sərhədlərini zorakılıqla dəyişdirməsi, terror yolu ilə azərbaycanlıları öz yurdlarından qovması barədə çıxış etdi və bildirdi ki, bütün bunlar «xalqların öz müqəddəratını təyin etməsi hüququ» adı altında hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etməsi və başqa dövlətin tərkibinə daxil olması hüququ kimi yozulması ilə pərdələnir (1, 11; 11, 308).

BMT-nin Baş katibi B.B.Qali də bu məsələ ilə bağlı öz narazılığını bildirdi: «Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır. (1, 11; 11, 308) Araşdırmalar göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını BMT-nin ATƏT-ə həvalə etməsi sülh yolu ilə həlli prosesini uzadır, bu təşkilatın vasitəçilik missiyası konkret nəticələr vermir. ATƏT-in Minsk qrupunun və Rusiya Federasiyasının səyləri nəticəsində yalnız atəşkəs barədə saziş imzalandı. Böyük sülh sazişinə isə Ermənistanın şərtləri mane olur. 1994-cü il oktyabrın 28-də ilk dəfə olaraq Azərbaycana səfər edən Baş katib B.B.Qali öz çıxışında TŞ-nın qəbul etdiyi qətnamələrin 4 əsas prinsip üzərində qurulduğunu bildirdi: 1. Azərbaycan Respublikasının ərazi bütövlüyü. 2. Azərbaycanın sərhədlərinin toxunulmazlığı. 3. Torpaq zəbt etmək üçün güc işlədilməsinin yolverilməzliyi. 4. Bu üç prinsip əsasında işğal edilmiş bütün torpaqlardan qoşunların heç bir qeyd-şərt qoyulmadan, təcili çıxarılması (1, 87).

Azərbaycanda sülhməramlı qüvvələrin iştirakına gəldikdə isə B.B.Qali 3 variant olduğunu qeyd etdi:

1. Tamamilə BMT-nin qoşunlarından ibarət qüvvələrin bu regiona gətirilməsi. Bu halda qüvvələr bilavasitə BMT-nin təyin etdiyi komandanın nəzarəti altında olacaqdır.
2. Regiona MDB qoşunlarının göndərilməsi.
3. Gürcüstanda tətbiq edilən variant – MDB qoşunları və BMT müşahidəçilərinin birgə səyləri (11, 443-444).

Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatların Cənubi Qafqazda münaqişələrin həll edilməsində rolu barədə aparılan sorğuda əhalinin əksəriyyəti BMT-nin fəaliyyətinə üstünlük verir (15,s.8).

1995-ci il mayın 9-da Moskvada H.Əliyev B.B.Qali ilə görüşərkən Baş katib bildirdi ki, əgər Prezident razı olarsa, Azərbaycana xoşməramlı missiya göndərmək niyyətindədir (1, 110). Missiyanın məqsədi BMT-nin münaqişəni nizamasalmada daimi maraq göstərməsini, problemin ATƏT və onun Minsk qrupu çərçivəsində həllini dəstəklədiyini sübut etmək, Azərbaycanda iqtisadi, siyasi islahatların keçirilməsi barədə məlumat əldə etmək, gələcəkdə BMT-nin xətti ilə yardımı artırmaq üçün qaçqınların ehtiyaclarını öyrənmək idi.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşündə H.Əliyev Minsk qrupu həmsədrlərini Lissabon prinsiplərinin Ermənistan tərəfindən qəbul edilməsi üçün lazımi fəaliyyət aparmamaqda günahlandırdı (13, 90). H.Əliyev Cənubi Qafqaz regionunun Avropanın ayrılmaz hissəsi olduğunu qeyd edərək, ABŞ, Avropa Birliyi ölkələri, Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və ATƏT-in digər üzvlərini regionun problemlərini həll etməyə çağırdı və təhlükəsiz Avropanın yaradılması üçün Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunması təklifini irəli sürdü (2, 429).

2004-cü ilin sentyabrında Baş Məclisin 59-cu sessiyasında çıxış edən prezident İ.Əliyev Ermənistanın

cinayətlərinin və təcavüzkar fəaliyyətinin qarşısını almağa çağırdı, hazırda TŞ-nin silahlı münaqişələrin qarşısını almağa qadir olmadığını, beynəlxalq sülh və təhlükəsizliyi müdafiə məqsədilə təsis edilmiş bu orqanda islahat aparmaq, iş metodlarının effektivliliyini artırmaq zəruriliyini bildirdi (14).

Ermənistanın xarici işlər naziri Vartan Oskanyan Baş Məclisdə çıxışında öz dövlətinin işğalçılıq siyasətini «Böyük Ermənistan» mifi ilə pərdələdi (16).

Adı çəkilən sessiyada Azərbaycan nümayəndəsi «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» məsələsini Baş Məclisdə müzakirəyə qoymaq təklifi ilə müraciət etdi. Azərbaycan nümayəndəsinin təklifi 43 səslə dəstəkləndi, 99 dövlət bitərəf qaldı, yalnız Ermənistan əleyhinə səs verdi (10, 73). Səsvermədən əvvəl çıxış edən Ermənistan nümayəndəsi bu məsələnin Baş Məclisdə müzakirə edilməsinə lüzum olmadığını bildirərək, bütün üzv dövlətləri təklifin əleyhinə səs verməyə çağırmışdı. Azərbaycan nümayəndəsi isə bu məsələnin Baş Məclisdə müzakirəsinin onun ölkəsi üçün vacib əhəmiyyət kəsb etdiyini bildirdi (6).

GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) dövlətləri 2005-ci ildə Moldova Respublikasının şərq rayonlarında, Gürcüstanın Abxaziya və Tsxinvali (Cənubi Osetiya) rayonlarında, Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətində olan dondurulmuş münaqişələrin beynəlxalq sülh və təzlükəsizliyə ciddi zərər vurması, nəzarətdən kənar qalmış ərazilərdə terror, separatizm, cinayət, insan alveri, narkotik və yüngül silahların satışına şərait yaranması, beynəlxalq vasitəçiliyin bu münaqişələri nizamasalmada heç bir nəticə verməməsi barədə Kişinyov bəyanatını qəbul etdilər. GUAM-ın üzvü olan dövlət başçıları Baş Məclisə müraciət edərək «dondurulmuş münaqişələr» barədə 60-cı sessiyada məsələ qaldırmağı zəruri hesab etdilər. (3, 67). 2005-ci ildə Baş Məclisdə Azərbaycan nümayəndəsi Ermənistanın 2010-cu ilə qədər Daglıq Qarabagda ermənilərin sayını 300 minə çatdırmaq niyyətini və bu faktların ABŞ Dövlət departamentinin hesabatında da əksini tapdığını bildirərək, işğal edilmiş ərazilərə ermənilərin köçürülməsi siyasətinə son qoymağı tələb etdi. Azərbaycanın mövqeyini Türkiyə və Pakistan nümayəndələri dəstəklədilər. Ermənistan nümayəndəsi təqdim edilən faktlara öz etirazını və Baş Məclisin bu məsələyə müdaxiləsinə ehtiyac olmadığını bildirdi (3, 73).

2006-cı ilin avqust ayında Baş Komitədə GUAM ölkə başçılarının Baş Məclisin 61-ci sessiyasında ilkin məsələ kimi «dondurulmuş münaqişələr» barədə məsələyə baxmaq təklifi də 15 səs lehinə, 16 səs əleyhinə verildiyi üçün təxirə salındı, 65 üzv dövlət isə bitərəf qaldı (21). Həmin ilin sentyabrında V.Oskanyan «Kosovoya müstəqillik verilməsinin Dağlıq Qarabağ üçün presedent olacağını bildirdi və dünya birliyində dezinformasiya yaratmaq məqsədilə onu da əlavə etdi ki, Azərbaycan DQ-ın şəhərlərində qırğın etməklə, erməni abidələrini dağıtmaqla və ərazisindən 300 min erməni əhalini qovduqdan sonra DQ üzərində idarəetmə hüququnu itirdi» (18).

2006-cı ilin sentyabrında Baş Məclisin 61-ci sessiyasında çıxış edən Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov bildirdi ki, DQ regionunun öz müqəddəratını müəyyən etməsi azərbaycanlı və erməni icmalarının razılığı ilə ola bilər (5). Həmin il BMT-nin regional təşkilatlarla əməkdaşlığına həsr edilmiş iclasında GUAM üzvləri adından çıxış edən Ukraynanın xarici işlər naziri Vladimir Xandoqiy BMT-nin regional təşkilatlarla, xüsusən də ATƏT-lə əməkdaşlığını möhkəmləndirərək Gürcüstan, Moldova və Azərbaycanda olan «dondurulmuş münaqişələri» nizama salmağa çağırdı (20). 2007-ci il Baş Məcilsin 62-ci sessiyasında çıxış edən Azərbaycan nümayəndəsi E.Məmmədyarov bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsi regionda ən təhlükəli münaqişə olaraq qalır, ATƏT çərçivəsində danışıqlar heç bir səmərə vermir, TŞ-nin qətnamələrinə əməl edilmir.

Baş Məcilsdə çıxış edən Ermənistan nümayəndəsi B.Oskanyan DQ münaqişəsinin «dondurulmuş münaqişə» olmadığını, bu istiqamətdə Azərbaycanla danışıqlar aparıldığını, BMT-də bu münaqişənin müzakirəyə qoyulmasına lüzum olmadığını və danışıqların ATƏT çərçivəsində aparılmasına əhəmiyyət verdiyini qeyd etdi (17).

Həmin ilin dekabrında Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın hazırladıqları «GUAM məkanında münaqişələr, beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün onların nəticələri» adlı qətnamənin layihəsi yayımlandı. Layihədə BMT-nin üzvləri və beynəlxalq, regional təşkilatların münaqişənin nizama salınmasında effektli fəaliyyət göstərərək qanunvericilik, insan, hüquq və əsas azadlıqlarına hörmət prinsiplərinə əsaslanaraq məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtmasına kömək etmək barədə çağırışlar əksini tapmışdı (4).

2008-ci ilin fevralında Azərbaycan tərəfindən Baş Məclisə təqdim edilən «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnamənin layihəsi nəşr edildi. Həmin il martın 14-də Baş Məcils «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnaməni qəbul edərək onun ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığı, ərazisini genişləndirmək üçün başqa dövlətin ərazilərinə müdaxilə etməmək prinsiplərini bir daha təsdiq etdi. Qətnamədə deyilirdi ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ətraf rayonlarda olan silahlı münaqişə beynəlxalq sülh və təhlükəsizliyi pozmaqda davam edir, Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir göstərir. Baş Məclis üzv dövlətləri Azərbaycanın ərazi bütövlüyü,

beynəlxalq tanınmış sərhədlərinə hörmət etməyə çağırır və bildirir ki, hər bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində vəziyyətin mürəkkəbləşdiyini etiraf etməli və vəziyyətin belə qalmasına şərait yaratmamalıdır. Qətnamədə işğal edilən ərazilərdən erməni silahlı qüvvələrinin tam, danışıqsız, təcili çıxarılması, məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün reabilitasiya da daxil olmaqla, müvafiq şərait yaratmaq zəruriliyi qeyd edildi.

Qətnamənin lehinə 39 səs, əleyhinə 7 səs verildi, 100 dövlət isə bitərəf qaldı. Qeyd etmək lazımdır ki, qətnamənin əleyhinə səs verən dövlətlər arasında Rusiya, ABŞ, Fransa da var. Baş Məclisin iclasında ATƏT-in Minsk qrupu həmsədrləri adından çıxış edən ABŞ-ın nümayəndəsi Aleksandro Vulff özlərinin belə mövqeyini qətnamənin 2007-ci ildə «balanslaşdırılmış paket» formasında Minsk qrupunun təklif etdiyi nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə izah etdi (7).

2008-ci il Baş Məcilsin 63-cü sessiyasında çıxış edən Ermənistan prezidenti Serj Sarkisyan xalqların öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsinin silahlı münaqişələrin qarşısını almaqda əsas amil olduğunu qeyd edərək, «Azərbaycan hökumətinin faktiki olaraq 16 ildir ki, mövcud olan "Dağlıq Qarabağ Respublikası"nı tanımadığını», Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməli olduğunu bildirdi (19). S.Sarkisyan Baş Məclisin mart qətnaməsinin münaqişə tərəflərindən birini dəstəklədiyini və nəticədə Azərbaycanda hərbi əhval-ruhiyyənin yeni dalğasını yaratdığını qeyd etdi. S.Sarkisyan həmçinin Rusiyanın Gürcüstanın işlərinə müdaxiləsini müdafiə etdi.

Baş Məlisdə çıxış edən Azərbaycan nümayəndəsi E.Məmmədyarov Təhlükəsizlik Şurası üzvləri arasında yekdillik olmamasının sülh və təhlükəsizliyə imkan vermədiyini, beynəlxalq təhlükəsizliyə əsas olan milli sərhədlərin qorunması üçün kollektiv təhlükəsizliyin həyata keçirilməsinin vacibliyini bildirdi: «Biz hamımız beynəlxalq münasibətlərin tənzimlənməsi üçün unikal alət olan BMT Nizamnaməsinə əməl etməliyik» (9).

Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə Gürcüstan, Türkiyə və oradan Avropa bazarına, Bakı-Novorossiysk neft kəməri vasitəsilə 1997-ci ildən Rusiya, oradan Avropa bazarına, Bakı-Supsa neft kəməri vasitəsilə 1999-cu ildən Gürcüstan, oradan Avropa bazarına çıxır. Hər bir region dövləti – Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya əməkdaşlıq edir, yalnız Ermənistan beynəlxalq hüquq prinsiplərini pozduğu üçün əməkdaşlıqdan kənarlaşdırılmışdır və bu da onun iqtisadiyyatının zəifləməsinə səbəb olur. Azərbaycan xalqının ümummilli lideri H.Əliyev Gürcüstan prezidenti E.Şevardnadze ilə 1996-cı il martın 6-da "Qafqaz regionunda sülh və təhlükəsizlik barədə" bəyannaməni imzalayarkən bu barədə demişdir: "Qafqaz millətlərarası münaqişələrdən, qeyri-sabitlikdən əziyyət çəkir, bizim başlıca vəzifəmiz regionda sülh və təhlükəsizliyi möhkəmlətməkdir. Bizim imzaladığımız bəyannamə hamı üçün açıqdır və ümid edirik ki, bizim ölkələr və qonşu regionun ölkələri ona qoşulacaqlar, kim bəyannaməni rədd edirsə, o, Qafqazda münaqişələrin tərəfdarı kimi özünü göstərir" (22, 297).

İstər yuxarıda adı çəkilən bəyannamə, istər 1997-ci il 18 fevral tarixli "Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşməsi haqqında" bəyannamə, istərsə də digər sənədlər Qafqazda sülh və təhlükəsizliyin, sabitliyin yaradılmasına yönəldilmişdir. Ermənistan-Azərbaycan münaqişəsinin, Gürcüstandakı qarşıdurmaların nizama salınması Cənubi Qafqazda sülh və sabitlik üçün ən vacib amildir.

H.Ə.Əliyev Qafqazda sülh və təhlükəsizliyin BMT, ATƏT və MDB-dən deyil, Qafqaz dövlətlərinin özlərinin fəaliyyətindən asılı olduğunu bildirirdi (12, 415).

## ƏDƏBİYYAT


1. Azərbaycan BMT ailəsində. Bakı: Azərnəşr, 2000, 345 s.
2. Azərbaycan beynəlxalq aləmdə: 5cilddə, V cild., Bakı: Göytürk,1999, 492s.
3. Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarovun diplomatik fəaliyyəti // Diplomatiya aləmi Jurnalı, 2005, № 13, s. 17-25
4. Азербайджан, Грузия, Молдова и Украина предлагают принять резолюцию Генеральной Ассамблеи о затянувшихся конфликтах в странах ГУАМ, 07.12.2007, Центр новый ООН, www.un.org
5. Азербайджан обеспокоен попытками связать терроризм с исламом, 26.09.2006, Центр новый ООН, www.un.org
6. В повестку дня 59-й сессии Генеральной Ассемблеи ООН включен новый вопрос: Положение оккупированных территориях Азербайджана, 29.10.2004. Центр новый ООН, www.un.org
7. Генеральной Ассамблеи ООН приняли резолюцию о положении на оккупированных территорий Азербайджана. 14.03.2008, Центр новый ООН, www.un.org
8. Глава МИД Азербайджана обеспокоена отсутствием результатов на переговорах под ОБСЕ по урегулированию конфликта с Арменией, 03.10.2007, Центр новый ООН, www.un.org
9. Замороженные конфликты на пространства ГУАМ остаются основным источником нестабильности в регионе, заявил Эльмар Мамедяров, 27.09.2000, Центр новый ООН, www.un.org

10. Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.73-76
11. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 28 kitabdan ibarətdir. II kitab, may, 1994-dekabr,1994, Bakı: Azərnəşr, 1997, 604 s.
12. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. V kitab, Bakı:Azərnəşr, 1998, 500s.
13. Heydər Əliyev: «Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməik», Bakı:Əbilov, Zeynalov və oğulları, 2006, 472 s.
14. Ильхам Алиев считает, что на «оккупированных азербайджанских территориях» укрываются террористы, 24.09.2004 Центр новый ООН, www.un.org
15. Конфликт на Южном Кавказе в зеркале общественного мнения Азербайджана. Баку: Фонд Содействия Развитого предпринимательства и Рыночной экономики, 45 с.
16. Министр иностранных дел Армении призывает не забывать о социально-экономических предносках мира и безопасности, 29.09.20044. Центр новый ООН, www.un.org
17. Министр иностранных дел Армении считает что ООН не место для урегулирования конфликта с Азербайджаном, 03.10.2007, Центр новый ООН, www.un.org
18. Решение по Косово не должно привести к созданию препятствии к самоопределению других – считает министр иностранных дел Армении, 26.09.2006 Центр новый ООН, www.un.org
19. События на Южном Кавказе свидетельствуют, что пришло время серьезно подойти к праву народов на самоопределение, заявил президент Армении, 25.09.2008, Центр новый ООН, www.un.org
20. Украина призывает укреплять сотрудничество ООН с региональными организациями с целью урегулирования конфликтов в Азербайджане, Грузии и Молдова. 20.10. 2006, Центр новый ООН, www.un.org
21. Члены ГУАМ оспорили рекомендацию генерального комитета и добились включения вопроса о затянувшихся конфликтах в повестке дня 61-й Генеральной Ассамблеей, 14.09.2006, Центр новый ООН, www.un.org
22. Шукуров И. Дипломатия мира об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.), Баку: Азербайджан, 1997, 392с.

## СОТРУДНИЧЕСТВО С ООН ПОСЛЕ ПРЕКРАЩЕНИЯ ВОЙНЫ

**Р.Б.ДАДАШОВА**

**РЕЗЮМЕ**

В статье автор считает предпочтительным урегулированию конфликта между Арменией и Азербайджаном в рамках ООН. Автор показывает, что после возвращения к власти общенационального лидера Азербайджана Г.А.Алиева, сотрудничество с ООН перешло на более высокий этап. Нынешний президент И.Г.Алиев является также сторонником мирного урегулирования этого конфликта. В статье также представлено обращения Азербайджанской Республики к мировому сообществу.

## COOPERATION WITH UNO AFTER THE CEASEFIRE

**R.B.DADASHOVA**

**SUMMARY**

The author supports cooperation of Azerbaijan with UNO and the regulation of the conflict between Azerbaijan and Armenia within the framework of UNO. The cooperation with UNO made progress after national leader H.Aliyev`s return to power. The author shows that president I.Aliyev continiues H.Aliyev`s policy and prefers the solution of the conflict within the framework of UNO. At the conclusion of the article, the author highlights the relation of the Azerbaijan Republic to the world community.